# Taekvondo üzrə "Koreya səfiri kuboku" yarışı başa çatdı

Azərbaycan Respublikası Taekvondo Federasiyası və Qəbələ rayon Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə, Koreya Respublikasının ölkəmizdəki səfirliyinin dəstəyi ilə 12-13 sentyabr 2015-ci il tarixdə Qəbələ Olimpiya İdman kompleksində taekvondo idman növü üzrə gənclər arasında "Koreya səfiri kuboku" yarışı keçirilmişdir. Yarışda respublikanın şəhər və rayonlarından ATF-ə üzv idman bölmələrində məşğul olan və müvafiq idman hazırlığına malik 150-dək idmançı mübarizə aparmışdır.






Yarışda 1998-2000-ci il təvəllüdlü oğlanlar 45 kq, 48 kq, 51 kq, 59 kq, 63 kq, 68 kq, 73 kq, 78 kq, +78 çəki dərəcəsində, qızlar isə 42 kq, 44 kq, 46 kq, 49 kq, 52 kq, 55 kq, 59 kq, 63 kq, +68 çəki dərəcələri üzrə güclərini sınamışdır.

Yarış mövcud Beynəlxalq qaydalara əsasən keçirilmişdir. Yarışın keçirilməsində əsas məqsəd taekvondo idman növünün respublikada inkişafına nail olmaq, gənc idmançılarda yarış təcrübəsini və ustalığı inkişaf etdirmək, taekvondo üzrə istedadlı idmançıları üzə çıxarmaqdan ibarətdir.

Tədbirin açılış mərasimində Koreya Respublikasının Azərbaycandakı səfiri cənab Çoi Suk-İn, Azərbaycan Taekvondo Federasiyasının vitse prezidenti Nağı Səfərov, Qəbələ rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov və Gənclər və İdman idarəsinin rəisi Fəxri Soltanov iştirak etmiş, Azərbaycanda idmanın, o cümlədən taekvondonun inkişafından, əldə edilən uğurlardan, idmana və idmançılara göstərilən dövlət qayğısından danışmış və yarış iştirakçılarına uğurlar arzulamışlar.

Yarışın yekununda hər çəki dərəcəsi üzrə I, II, III yeri tutmuş idmançılar diplom, medal və qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.

**Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Sinif otaqları təmir edildi



16 sentyabr 2015-ci il tarixdə İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Həyata keçirdiyi "Məktəb Binasının Təmiri" layihəsinin Kötüklü kəndində açılış mərasimi olmuşdur.



Kötüklü kəndi rayon mərkəzindən xeyli uzaqda yerləşir. Kənd məktəbinin bir neçə sinif otağının istismar müddəti başa çatmışdı, siniflərdə dərs keçmək demək olar ki, mümkün deyildi. Bu da şagirdlərin normal təhsil almalarına çətinliklər yaradırdı. Qeyd olunan problemi həll etmək üçün layihə çərçivəsində ümumi sahəsi 14,4x10,8 m olan məktəb binası təmir olundu. Binanın dam örtüyü dəyişdirildi, 4 otaq və bir eyvanın döşəmə, tavan, qapı, pəncərələri yeniləri ilə əvəz olundu.

Binanın təmiri məktəbdə təhsilin səviyyəsini yüksəldəcək, məktəblilərin tədris prosesində nailiyyətlərini artıracaq.

Layihənin açılışında Qəbələ Rayon İcra Haimiyyəti başçısının müavini Ətayə Osmanova, AzKİL-in direktor müavini, İcma İnkişafı və Bacarıqların Artırılması üzrə menecer Gülbəniz Qənbərova, AzKİL-2 Şimal Zonası üzrə Proqram mütəxəssisi Akif Kərimli, Qəbələ Rayon Təhsil Şöbəsi müdirinin müavini İxtiyar Şirinov kənd icra nümayəndəsi İkram Nəbiyev, məktəbin direktoru Qabil Xudatov, valideyn, icma qrupunun rəhbəri Ələsgər Nəbiyev iştirak və çıxış etmişlər.

Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkədə uğurla davam etdirilən iqtisadi inkişaf strategiyasının bariz nümunəsi olan "Azərbaycan kənd investisiya layihəsi"nin müstəsna mövqe və xidmətlərini vurğulayaraq kənd sakinlərini təbrik etdilər.

Kənd sakinləri və ziyalılar kəndin məktəb probleminin həllində göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə, Qəbələ Rayon İcra Hakimiyyətinə, AzKİL-ə minnətdarlıqlarını bildirdilər.

Sonda şagirdlərə məktəbli çantaları hədiyyə olundu

**Oqtay MƏMMƏDOV.**

# İlk dərs gününün sevinci

(Əvvəli 3-cü səhifədə).

Təhsilimizin təəssübkeşi ulu öndər Heydər Əliyev təhsil sahəsinə həmişə böyük önəm vermiş, müstəqil Azərbaycan dövlətinin müasir beynəlxalq standartlara uyğun yeni təhsil sisteminin qurulması üçün əlindən gələni etmişdir. Onun bu işi hazırda onun yetirməsi olan ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının verdiyi fərmanlar, onun rəhbərliyi altında reallaşdırılan təhsil proqramları milli təhsilimizin sürətli inkişafını təmin edir. Prezidentin bu istiqamətdə gördüyü işlər xalq arasında böyük razılıq hissi ilə qarşılanır. Dövlətin təhsil işçilərinə qayğısı bizim hər birimizin məsuliyyətini bir daha artırır. Yeni dərs ilində qarşımızda böyük vəzifələr durur, bu vəzifəni layiqincə yerinə yetirməyə çalışacağıq.

Direktor daha sonra qeyd etmişdir ki, rayonun ən qocaman və tanınmış məktəblərdən olan 1 saylı tam orta məktəbi 2014-2015-ci tədris ilində bitirmiş məzunların 18 nəfəri ali məktəblərə qəbul olunmuş, onlardan 1 nəfəri 695, 4 nəfəri isə 600-ə yaxın bal toplamışdır. Keçən tədris ilində məktəbin bir neçə nəfər şagirdi respublika və rayon fənn olimpiadalarında qaliblər sırasında yaxşı yer tutmuşlar.

Direktor daha sonra qeyd etdi ki, tədris ili ərəfəsində məktəbin idman zalı, bütün sinif otaqları və fənn kabinələri təmir olunaraq tam hazır vəziyyətə gətirilmişdir.

Mərasimdə çıxış edən müəllimlər, valideynlər və qonaqlar yeni dərs ilinin başlanması münasibəti ilə şagirdləri təbrik etmiş, onlara tədrisdə uğurlar arzulamışlar.

Respublikamızın hər yerində olduğu kimi şəhər 1 saylı tam orta məktəbdə də ilk zəng calındı. Yeni tədris ilinin başlanmasını bildirən zəngin sədaları ətrafa yayıldı, müəllim və şagirdləri yeni uğurlara səslədi. Bu bayram tədbirində ən çox sevinən isə şübhəsiz ki, birincilər oldu. Üzlərində ilk məktəb gününün xoşbəxtliyi aydın hiss olunan bu balaca fidan balalar sanki nağıl dünyasına düşmüşdülər. Həyəcanla bundan sonra nələr olacağını gözləyirdilər. İllər keçəcək, parta arxasında oturan bu balacalar mükəmməl bilik qazanmaq yolunda daha böyük həyəcanlar yaşayacaq, bu anların hər biri onların yaddaşlarında unudulmaz xatirələrə çevriləcəkdir.

**Amal CƏLALZADƏ,**
**məktəbin müəllimi.**